# Bayburtlular

Bayburtlu (həmçinin Bayburdlu), yeganə izləri kimi bəzi tarixi şəxsiyyətlərin adları görünən quzeybatı İranda bir Türk tayfasıdır. Onun adı, Anadolunun gündoğusunda, Ərzurumdan 100 mil quzeybatıda Bayburt, və ya Bayburddan gəldiyini göstərir. Bu, erkən Səfəvilərin əsas dayağını təşkil edən tayfalardan biri idi. Bu oymağın başçısı, Qaraca İlyas Bayburtlu, Şah İsmayılın Azərbaycan hakimi Ağqoyunlu Əlvənd Mirzəni qəti şəkildə yendiyi Naxçıvan yaxınlığındakı Şərur döyüşündə onun sahə sərkərdələrindən biri idi. Bu oymaq, həmçinin, I Şah Abbas hakimiyyətində də iki görkəmli şəxsiyyət yetişdirmişdi: 1. Şaha çox yaxın olmuş (yasavul-i söhbət) Şahverdi Bəy Bayburdlu; 2. Arasbar valisi və əmiri olmuş Murad Xan Sultan Bayburdlu.

---

***Pierre Oberling***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**